RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

20 fevral 2024-cü il

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfəri

# Türkiyə-Azərbaycan birliyi təkcə bölgə üçün deyil, Avrasiya üçün önəmli amilə çevrilib

## Ankaranın Esenboğa hava limanında qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə fevralın 18-də Türkiyəyə rəsmi səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu və digər rəsmi şəxslər qarşıladılar.

